*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 iyun 2016-cı il № 44 (2059) Qiyməti 25 qəpik

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmaması region üçün böyük təhlükədir

***İyunun 8-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı diplomatik nümayəndəliklərinin və beynəlxalq təşkilatların rəhbərlərini qəbul edib.***

***Dövlətimizin başçısı görüşdə çıxış edib.***



- Hörmətli səfirlər, mən sizin hamınızı müqəddəs Ramazan ayının başlaması münasibətilə ürəkdən təbrik edirəm. Ramazan ayında bizim görüşlərimiz gözəl ənənəyə çevrilibdir.

Mən şadam ki, müsəlman ölkələrinin səfirliklərinin sayı Azərbaycanda artır. Bu, bizim dostluğumuzu, həmrəyliyimizi göstərir. Xahiş edirəm ki, Ramazan ayının başlaması münasibətilə mənim salamlarımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələrlə Azərbaycanın çox sıx əlaqələri vardır. Biz həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurlu əməkdaşlıq edirik. Əminəm ki, bu əməkdaşlıq gələcək illərdə daha da dərinləşəcək. Müsəlman ölkələri ilə əməkdaşlıq bizim xarici siyasətimizin prioritet istiqamətlərindən biridir. Respublika Gününə həsr edilmiş rəsmi qəbulda xarici siyasət prioritetləri haqqında danışarkən mən bu məqamı xüsusi qeyd etmişdim. Biz, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq edirik və daim bir-birimizi dəstəkləyirik. Biz həmişə BMT-də Azərbaycan ilə bağlı məsələlər müzakirə olunarkən müsəlman ölkələrinin dəstəyini hiss edirik və öz növbəmizdə həmişə BMT-də müsəlman ölkələrini dəstəkləyirik. Aprel ayında İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Zirvə Görüşündə də biz bir daha bu həmrəyliyi nümayiş etdirmişik. Bildiyiniz kimi, Zirvə Görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox ciddi sənəd qəbul edilmişdir, aprel ayında Azərbaycana qarşı törədilən erməni təxribatı pislənilmişdir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupu yaradılmışdır. Biz bu addımları çox yüksək qiymətləndiririk və bütün bunlara görə müsəlman ölkələrinə minnətdarlığımızı bildiririk.

Bildiyiniz kimi, Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmaması region üçün böyük təhlükədir. Bizə qarşı ədalətsizlik törədildi, torpaqlarımızın təxminən 20 faizi işğal altındadır və 1 milyondan çox qaçqın-köçkün bu münaqişədən əziyyət çəkir. Ermənistan bizə qarşı etnik təmizləmə siyasəti aparmışdır, Xocalı soyqırımı törədilmişdir. İşğal edilmiş torpaqlarımızda bütün tarixi-dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Məscidlərimizin böyük hissəsi dağıdılıb, qalan yarıdağılmış məscidlərdə ermənilər hərbi qərargahlar yaratmışlar. Bu barədə bu yaxınlarda xarici jurnalistlər də məlumat vermişlər və fotomateriallar təqdim etmişlər. Bununla bərabər, Ermənistanın rəhbərliyi Avropa ölkələrində olarkən daim münaqişə ilə bağlı həm təhrif edilmiş məlumatları ötürür, eyni zamanda, bu münaqişəyə dini don geyindirməyə çalışır. Bir çox hallarda Ermənistan rəhbərliyi qeyd edir ki, onlar bu çətin coğrafi vəziyyətdə - üç müsəlman ölkəsinin əhatəsində xristian dəyərlərini müdafiə edirlər. Bu, böyük riyakarlıqdır. Siz - Azərbaycanda yaşayan insanlar yaxşı bilirsiniz ki, Azərbaycanda dini, milli zəmində heç vaxt heç bir münaqişə, yaxud da ki, anlaşılmazlıq olmamışdır. Azərbaycanda məscidlərlə bərabər, kilsələr, sinaqoqlar tikilir. Erməni kilsəsi şəhərin mərkəzində toxunulmaz olaraq qalır və eyni zamanda, Azərbaycan dövləti o kilsənin təmirinə vəsait ayırıbdır. Ona görə Ermənistan prezidentinin və digər şəxslərin belə ucuz, nalayiq çıxışları, əlbəttə, bir daha demək istəyirəm ki, riyakarlığın təzahürüdür. Bu, bir daha onu göstərir ki, Ermənistan rəhbərliyi müsəlman ölkələrinə düşmən gözü ilə baxır, əks təqdirdə, belə cəfəng bəyanatlar verməzdi. Amma bununla bərabər, öz çirkin niyyətlərini pərdələmək üçün beynəlxalq arenada cəhdlər göstərir ki, müsəlman ölkələri ilə sıx əlaqələr qursun. Mən əminəm, müsəlman ölkələrinin rəhbərliyi və ictimaiyyəti kifayət qədər məlumatlıdır ki, Ermənistan İslam abidələrini dağıdıb, məscidlərimizi təhqir edib və Azərbaycan torpaqlarını işğal altında saxlamaq üçün cəhdlər göstərir.

Bir sözlə, bütün müsəlman aləmi həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə, həm də bütün başqa məsələlərlə bağlı birlik, həmrəylik nümayiş etdirməlidir. Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsi üçün çox böyük səylər göstərir, ciddi addımlar atır. Azərbaycan müxtəlif ölkələrdə baş qaldıran islamofobiyaya qarşı çox ciddi mübarizə aparır. Biz açıq şəkildə müxtəlif səviyyələrdə, ən yüksək səviyyələrdə bu məsələ ilə bağlı öz sözümüzü deyirik, islamofobiyanı pisləyirik və öz nümunəmizi təqdim edirik. İslamofobiya həm müsəlman ölkələri və xalqları, eyni zamanda, bu çirkin meyillərə rəvac verənlər üçün də təhlükədir. Bu, qarşıdurmanı daha da dərinləşdirir, qarşılıqlı inamsızlığı artırır. Azərbaycanda bütün dinlərin nümayəndələri rahat, bir ailə kimi, sülh şəraitində yaşayırlar. Biz qardaşlıq, dostluq şəraitində yaşayırıq. Nümayiş etdiririk ki, multikulturalizm dəyərləri yaşayır və yaşamalıdır. Bildiyiniz kimi, bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. BMT-nin Sivilizasiyalar Alyansının bu il Azərbaycanda Qlobal Forumunun nəticələri bir daha onu göstərir ki, Azərbaycan bu yolda çox böyük uğurlara imza atıb.

Ötən il Bakıda birinci Avropa Oyunları keçirildi, gələn il isə İslam Həmrəylik Oyunları keçiriləcək. Əminəm ki, İslam Həmrəylik Oyunları tarixdə təkcə idman yarışı kimi qalmayacaq. Biz istəyirik ki, İslam Həmrəylik Oyunları gələn il bütün dünyaya nümayiş etdirsin ki, İslam aləmi birliyə, sülhə, sabitliyə çağırır. Eyni zamanda, əminəm ki, bu Oyunlar İslam mədəniyyətinin təzahürü olacaqdır.

Həmrəylik Oyunlarından bir il sonra - 2018-ci ildə qədim Azərbaycan şəhəri Naxçıvan İslam mədəniyyətinin paytaxtı elan olunacaq. Bir neçə il bundan əvvəl Bakı bu şərəfli ada layiq görülüb. İndi isə Naxçıvan bu şərəfli missiyanı icra edəcək.

Bir sözlə, bir daha qeyd etmək istəyirəm ki, biz Azərbaycanda çalışırıq ki, İslam ölkələri arasındakı birliyi daha da gücləndirək. Biz bu istiqamətdə səylərimizi davam etdirəcəyik.

Bir daha sizi salamlayıram və sizə fəaliyyətinizdə uğurlar arzulayıram. Sağ olun.

*15 İyun - Milli Qurtuluş Günüdür*

# Müdrik və qətiyyətli sərkərdə nümunəsi

## Ümummilli liderimizin müəllifi olduğu ordu quruculuğu strategiyası yeni inkişaf mərhələsində

General-mayor Rasim ƏLİYEV,
Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi

Hər bir xalq öz tarixi şəxsiyyətləri, mütəfəkkirləri ilə tanınır. Dahi şəxsiyyətlər, əslində, mənsub olduğu xalqın milli sərvətidir. Azərbaycan xalqı XX əsrdə belə dahilərdən birini - müdrik siyasətçi Heydər Əliyevi yetirib.

Heydər Əliyev ilk dəfə siyasi hakimiyyətə müasir dövrümüzdən tamamilə fərqli olan bir zamanda - Azərbaycanın Sovet imperiyası tərkibində olduğu vaxtda gəldi. 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi respublikanın inkişafında yeni mərhələnin başlanğıcı oldu. Özündə əsl liderə xas olan xüsusiyyətləri cəmləşdirən Heydər Əliyev respublika rəhbərliyində etimadı doğrultmağa qadir idi. O zaman Azərbaycanın ittifaqın geridə qalmış milli respublikalarından biri olması həmin dövrdə yaşamış insanların yaxşı yadındadır. Müdrik siyasətçi olan Heydər Əliyev qısa bir zamanda bütün sahələrin inkişafına nail oldu. Onun təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda iqtisadi əhəmiyyətinə görə seçilən iri sənaye müəssisələrinin yaradılması bir tərəfdən respublika əhalisini iş yerləri ilə təmin edirdisə, digər tərəfdən xalqımızın imzasını millətlər arasında tanıdırdı.

Xalqımızın mədəni və iqtisadi inkişafa nail olduğu həmin illərdə dahi rəhbəri düşündürən ən vacib sahələrdən biri də milli hərbi ənənələrin formalaşdırılması idi. Sovet ordusu sıralarında azərbaycanlı zabitlərin azlıq təşkil etməsi onu narahat etdiyinə görə respublikanın birinci katibi kimi tez-tez Bakıda fəaliyyət göstərən hərbi təhsil müəssisələrinə baş çəkirdi.

Bir dəfə respublika təhsil işçilərinin müşavirəsində Azərbaycan övladlarının hərbi təhsilə münasibəti ilə maraqlanan respublikanın birinci katibi gələcəyin zabitləri arasında xalqımızın az sayda təmsil olunduğunu biləndə mərhum generalımız Valeh Bərşadlıya deyir: "Bəs siz hara baxırsınız, niyə azərbaycanlı kursantların sayı azlıq təşkil edir?" Bu haqda dərindən düşünmək, çıxış yolu tapmaq gərək idi və Heydər Əliyev böyük uzaqgörənliklə respublikada hərbi ənənələrin inkişaf etdirilməsinə və gənc nəslin hərbə marağının, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə xüsusi fikir verirdi.

O, neçə illər öncə Azərbaycanın nə vaxtsa müstəqil olmasını arzulayırdı, dövlətçiliyin ən vacib atributlarından biri kimi ordunun zəruriliyini düşünürdü. Bu baxımdan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması böyük gələcəyə hesablanmış ən uğurlu siyasi addım idi.

Azərbaycanda ibtidai hərbi təhsil müəssisəsinin - indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması, əslində, rəhbərdən siyasi qətiyyət və cəsarət tələb edirdi. Sovet sisteminin o zamankı tələbləri ilə uyğunlaşmayan belə bir təşəbbüsün irəli sürülməsinin müəyyən siyasi problemlər yarada biləcəyi də şübhə doğurmurdu. Axı, mərkəzdəkilər bu məsələyə ciddi qısqanclıqla yanaşmışdılar və buna mane olmağa çalışmışdılar. Yalnız Moskvada Suvorov adına belə bir hərbi təmayüllü məktəb vardı və keçmiş Sovet sərkərdələrinin böyük əksəriyyəti həmin təhsil ocağının yetirməsi idi. Belə çətin bir məsələnin öhdəsindən məhz Vətənini, millətini düşünən lider gələ bilərdi. Bu məktəbin respublikamızda yaradılması tarixi hərb ənənələrimizə böyük ehtiramın təzahürü idi. Hər il neçə-neçə yeniyetmə bu təhsil ocağına qəbul edilirdi. Onlar Azərbaycanın müstəqilliyini bərpa edəcəyi ilk dövrlərdə ordu quruculuğuna dəyərli töhfələr verəcəkdilər. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla Silahlı Qüvvələrimizin əksər zabit heyəti ümummilli liderimizin böyük çətinliklər hesabına yaratdığı hərbi liseyin yetirməsidir.

Bu tarixi şəxsiyyətin siyasi dühası, böyük uzaqgörənliyi, fitri istedadı dünyanın tanınmış siyasətçilərini də heyran etmişdi. Bundan ali rütbəli zabit kimi, vətəndaş kimi mən də qürurlanıram.

Taleyimdən çox razıyam ki, ulu öndərin müasirlərindən biri olmuşam və mənə Naxçıvanda xidmət etdiyim vaxtlar onunla iki dəfə görüşmək nəsib olub. Heydər Əliyev istər ötən əsrin 90-cı illərin əvvəllərində Naxçıvana rəhbərlik etdiyi dövrdə, istərsə də Azərbaycanın dövlət başçısı olduğu illərdə blokada şəraitində olan bu qədim diyarın problemlərini, çətinliklərini, əhalinin qayğılarını dərindən düşünürdü və əlindən gələn köməyi əsirgəmirdi. Bir faktı qeyd edim ki, o, Prezident kimi hər dəfə Naxçıvana səfər edəndə mütləq özünün təşəbbüsü ilə 1998-ci ildə yaradılmış Cəmşid Naxçıvanski adına Hərbi Liseyin filialına baş çəkərdi. 1999-cu ildə, sonra isə 2002-ci ilin 15 iyununda - Milli Qurtuluş Günündə ölkə rəhbəri ilə görüşlərin iştirakçısı olmuşam. Xatırladım ki, o vaxtlar Hərbi Liseyin Naxçıvan filialının rəisi idim və şübhəsiz, dahi rəhbərlə söhbətlərimiz də olmuşdu, onun dəyərli, vacib tövsiyələrini şəxsən dinləmişdim.

Heydər Əliyev elə bir lider idi ki, bütün məsələlərlə incəliklərinə qədər maraqlanardı, yeniyetmə naxçıvanskiləri isə doğma övladları bilərdi. Onlara heyranlıqla baxdıqca elə bil müstəqil Azərbaycanın parlaq gələcəyini görürdü.

Hər bir müstəqil dövlətin gücü onun ordusu, hərbi qüdrəti ilə sıx bağlıdır. Ordunun formalaşmasında isə bacarıqlı, savadlı zabit kadrları ən mühüm amillərdəndir. Heydər Əliyev Azərbaycanda müasir hərbi təhsil sisteminin bünövrəsini yaratmaqla Silahlı Qüvvələrimizin mühüm bazasını formalaşdırdı.



Müdrik komandan daim tövsiyə edirdi ki, zabit peşəsini seçərək taleyini Vətəni qorumağa həsr edən hər kəs nəcib mənəvi keyfiyyətlərə malik olmalı, Vətənə, dövlətçiliyə və xalqa sədaqəti ilə seçilməlidir. Bu kəlamlar aqil tövsiyəsidir və bu tövsiyə, belə müdriklik, belə uzaqgörənlik zaman-zaman yerinə yetirildi. Xalqımız Heydər Əliyevi xatirəsində daim böyük ehtiramla yaşadır və yaşadacaqdır. 2004-cü il fevralın 27-də Naxçıvan şəhərindəki Hərbi Liseyə ulu öndərin adının verilməsi də bu ehtiramın təzahürüdür.

Fikrimcə, Heydər Əliyevi Azərbaycanın lideri səviyyəsinə yüksəldən ən başlıca amil tükənməz Vətən sevgisi, doğma xalqına, millətinə dərin məhəbbəti idi. 1993-cü ildə onun ölkəmizdə siyasi hakimiyyətə qayıdışı, əslində, çox təzadlı bir dövrə təsadüf etmişdi və yaxşı bilirdi ki, bu yolda onu nə qədər çətinliklər, təhlükələr gözləyir. Amma elə bir insan heç vaxt öz xalqını darda qoymazdı, milyonların çağırışına biganə qalmazdı. Siyasi hakimiyyətə yenidən qayıtmaqla, özünün qeyd etdiyi kimi, ömrünün qalan hissəsini də xalqına, Vətəninə həsr etdi.

Heydər Əliyev yüksək idarəçilik bacarığına, dərin siyasi təfəkkürə, böyük təşkilatçılıq qabiliyyətinə malik müdrik tarixi şəxsiyyət idi.

1918-ci ildə ilk cümhuriyyətimizin çətinlikləri ilə müqayisədə 90-cı illərdəki problemlərimiz daha artıq idi. Azərbaycan, dövlət müstəqilliyini bərpa edəndə olduqca ağır və mürəkkəb tarixi şəraitlə üzləşmişdi. Bir tərəfdən müstəqilliyimizi istəməyən xarici və daxili separatçı qüvvələrin təxribatları, digər tərəfdən güclü himayədarına arxalanan işğalçı Ermənistanın sərhəd bölgələrimizə silahlı müdaxiləsi Vətənimizi ağır duruma salmışdı. Xalqın qanı bahasına qazanılan müstəqillik qısa vaxtda itirilə bilərdi və Azərbaycan vətəndaş müharibəsinə düçar olardı.

Azərbaycanı siyasi və iqtisadi böhrandan çıxarmağı bacaran ümummilli lider tərəfindən müasir ordu quruculuğu strategiyası da məhz həmin dövrdə işlənib hazırlandı və mərkəzi komandanlıqdan idarə edilən, yüksək döyüş hazırlığına və güclü hərbi intizama malik Silahlı Qüvvələrimiz yaradılmaqla həm gənc müstəqil dövlətin suverenliyini təmin edən etibarlı qüvvə, həm də torpaqlarımızı işğaldan qorumağa qadir mühüm müdafiə potensialı formalaşdırıldı. Ən başlıcası, onun timsalında müdrik və qətiyyətli komandan nümunəsi yarandı və bu ənənə 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Həmin vaxtdan ordu quruculuğunu inkişaf etdirməyi siyasi kursunun başlıca istiqaməti elan edən dövlət başçısı Silahlı Qüvvələrimizin müasir dünya orduları səviyyəsində qurulması üçün ən vacib tədbirlər həyata keçirir. Ordu hissələri müasir silah və hərbi texnikalarla təmin edilir, hərbi qulluqçuların sosial-məişət qayğılarının həll edilməsi, xüsusən hərbçi ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülür.

Ali Baş Komandanımız çıxışlarının birində qeyd edib ki, bu gün Azərbaycanda nizami ordu vardır, bu gün Azərbaycan Ordusu ən yüksək səviyyədədir. "Ordumuzda peşəkarlıq, döyüş qabiliyyəti artır, Silahlı Qüvvələrdə ruh yüksəkliyi vardır. Bütün bu məsələlər bizi çox sevindirir. Azərbaycanda ordu quruculuğu prosesi bundan sonra da uğurla gedəcəkdir..."

Ölkə rəhbərinin tez-tez hərbi hissələrdə olması, cəbhə xəttində əsgər və zabitlərlə görüşməsi, doğrudan da, müdrik komandan nümunəsinin davamı və cəmiyyətimizə əsl vətənpərvərlik örnəyidir. Xatırlayıram ki, 2014-cü ilin avqustunda ermənilərin növbəti irimiqyaslı təxribatının qarşısı alındıqdan sonra Ağdama səfər edən cənab Prezident xüsusi fəlqlənən bir qrup hərbi qulluqçu ilə görüşüb onlara mükafatlar təqdim etmişdi. Həmin vaxt ölkə rəhbərinə minnətdarlıq edən cəsur zabitlərimizdən biri Ali Baş Komandana torpaqlarımızın işğaldan azad edilməsi üçün can əsirgəməyəcəklərini bildirmişdi. Həmin zabit mayor Samid İmanov idi və o, aprel döyüşlərində xüsusi fədakarlıq nümayiş etdirərək şəhid oldu. Dövlət başçısı tərəfindən ona ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verildi.

Aprelin 2-dən 5-dək düşmənin cəbhə xəttindəki təxribatlarının qarşısının alınmasında iştirak edən Azərbaycan Ordusunun döyüş bölmələri, doğrudan da, qısa vaxtda qəhrəmanlıq nümunələri göstərdilər. Vətənpərvər hərbçilərimiz son nəfəsədək mübarizə aparmaq əzmini nümayiş etdirməklə Silahlı Qüvvələrin şəxsi heyətinin yüksək döyüş ruhunu cəmiyyətimizə və beynəlxalq aləmə sübut etdilər. İşğalçı Ermənistanın siyasi və hərbi rəsmiləri bir daha anladılar ki, artıq Azərbaycan Ordusu ərazi bütövlüyümüzü təmin etmək üçün yüksək vətənpərvərliyə və döyüş hazırlığına malikdir.

Bu hadisələrdən sonra yenə də dövlət başçımız öz xanımı ilə cəbhə bölgəsinə - Tərtərə səfər etdi və düşmənlə təmas xəttinə yaxın kəndlərə baş çəkdi. Bir neçə gün əvvəl işğalçılar tərəfindən artilleriya atəşinə məruz qalmış kəndin sakinləri ilə görüşdü, anaları, uşaqları səmimi salamlayıb onların hünər və qorxmazlığını qiymətləndirdi. Həm dövlət başçısı, həm də sadə adamlar belə təhlükəli şəraitdə yaşamaqdan çəkinməyən Azərbaycan əsgərinin gücü ilə əlaqələndirdilər. Bu, əslində, düşmənə bir mesaj olmaqla qorxmazlıq və qəhrəmanlıq nümunəsidir. Düşmən anladı ki, Azərbaycan Prezidenti hər bir ölkə vətəndaşının təhlükəsizliyinin qarantı olan təcrübəli lider və əsgərinə dayaq olan müdrik, qətiyyətli komandandır.

Aprel döyüşlərində qələbəmizi təmin edən səbəbləri təhlil edərkən xüsusi vurğulamaq istərdim ki, ən başlıca amil ümummilli liderimiz Heydər Əliyev tərəfindən işlənib hazırlanmış ordu quruculuğu strategiyasının, onun müdrik və qətiyyətli sərkərdə nümunəsinin müasir dövrdə Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurlu davamıdır.

Ulu öndərimizin zəngin və çoxşaxəli irsi Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti tərəfindən dərindən öyrənilir. Onun müdrik və qətiyyətli sərkərdə nümunəsi hər birimiz üçün örnəkdir.

# Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonada olub





**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada olub.**

Hərbi qulluqçuların döyüş, eləcə də atəş və taktiki hazırlıqlarının yüksəldilməsi məqsədilə nəzərdə tutulan təlim poliqonuna gələn nazir ərazidə cəbhə xəttindəki vəziyyətin modelləşdirilməsi, təlimlərin real döyüş şəraitinə uyğun keçirilməsi və digər praktiki məşqlərlə bağlı görülən işlərlə maraqlanıb.

Müdafiə naziri ərazidəki komanda məntəqəsində olub, çöl şəraitində yaradılmış düşərgədə təlim keçən şəxsi heyətlə görüşüb, onların peşəkarlıq və döyüş qabiliyyətlərinin artırılması ilə bağlı müvafiq göstəriş və tapşırıqlar verib.

Sonra nazirliyin rəhbərliyi hərbi şəhərcik ərazisində yeni inşa edilmiş yaşayış kompleksinin açılışında iştirak edib.

Ümumilikdə hər biri üç otaqdan ibarət 52 xidməti mənzil kommunikasiya xətləri ilə tam təchiz olunub. Müasir standartlara cavab verən təmirli otaqlar mebel və digər avadanlıqla təmin edilib. Yaşayış kompleksinin həyətində yaşıllaşdırma və abadlıq işləri görülüb, hərbi qulluqçular və onların ailə üzvlərinin səmərəli istirahəti üçün lazımı şərait yaradılıb.

Hərbi qulluqçular və ailə üzvləri yaradılan şəraitdən məmnun qaldıqlarını, göstərilən diqqət və qayğıya görə Ali Baş Komandana minnətdarlıqlarını bildiriblər.



Elə həmin gün Müdafiə naziri cəbhəboyu zonada yeni istifadəyə verilən səhra hospitalının açılışını da həyata keçirib.

Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev görülən işlər barədə məruzə edərək bildirib ki, təxirəsalınmaz və ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi üçün nəzərdə tutulan səhra hospitalı ən müasir tibbi avadanlıqlarla tam təchiz olunub.

Hospitalın əməliyyat, reanimasiya, müayinə, intensiv terapiya, rentgen, laboratoriya otaqları və palataları ilə tanış olan nazir tibb personalı ilə görüşərək şəxsi heyətə daha keyfiyyətli tibbi xidmətin gostərilməsi ilə bağlı müvafiq tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Polad Bülbüloğlu: Regionun sülhə ehtiyacı var

**Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu Rusiyanın "Moskovski Komsomolets" qəzetinə müsahibəsində Rusiya-Azərbaycan münasibətləri, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi və Metsamor AES ilə bağlı təhlükə haqqında danışıb.**



Səfir qeyd edib ki, Azərbaycan və Rusiyanı ortaq tarix, mədəni-humanitar və informasiya məkanı birləşdirir, ölkələrimiz, o cümlədən regionlararası səviyyədə ticarət-iqtisadi əməkdaşlığı fəal inkişaf etdirir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar suala cavab verərkən diplomat deyib: "Ermənistan başqa dövlətin ərazisini işğal edib və indi dünyaya izah etməyə çalışır ki, bu, belə də olmalıdır. Amma bu absurddur! Azərbaycan, onun ərazisinin işğalı, özgə ərazisini qanunsuz işğal edən təcavüzkar var. Azərbaycan ona qarşı həyata keçirilən təcavüzün nəticələri ilə heç vaxt barışmayacaq. Özünümüdafiə BMT-nin Nizamnaməsinə uyğun olaraq hər bir ölkənin hüququdur. Bu, qədim dövrlərdən indiyə qədər hər bir xalqın müqəddəs borcudur. Azərbaycan vətəndaşı kimi, əslən Qarabağdan olan, Şuşada ata-baba evi indi işğal altında olan bir insan kimi dəfələrlə demişəm və indi də deyirəm ki, Vətənimin torpaqlarını işğalçılardan azad etmək üçün Vətən müharibəsində şəxsən iştirak etməyə hazıram. Lakin bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət quruculuğu, o cümlədən hərbi quruculuq sahəsində əldə edilən müvəffəqiyyət sayəsində Silahlı Qüvvələrimizin potensialı kifayət qədər çoxdur və aprel hadisələri zamanı Müdafiə Nazirliyi könüllülərin orduya cəlb edilməsinə ehtiyac olmadığını bildirib."

P.Bülbüloğlunun sözlərinə görə, münaqişənin həllində real irəliləyiş tərəflər arasında razılaşdırılmış qrafik üzrə erməni işğalçı qüvvələrinin çıxarılması və Azərbaycanın ərazi bütövlüyünün bərpasının həyata keçirilməsi ilə başlamalıdır. Səfir fikrinin davamında deyib: "Qısa müddətdə məhz bu nəticənin əldə edilməsinə ATƏT-in Minsk Qrupunun həmsədrləri, o cümlədən təşkilatın səhra missiyaları yardım etməlidirlər. Sülhməramlı adı altında mövcud status-kvonun möhkəmləndirilməsi mexanizmlərinin yaradılmasına cəhd göstərilməsi səmərəsizdir. Azərbaycan belə bir yanaşmaya razılıq verməyəcək, çünki o, həm ölkəmizin maraqları, həm də beynəlxalq hüquq baxımından qəbuledilməzdir. Regionun müharibənin nəticələrinin uzun müddət saxlanılmasına və işğal vəziyyətinin konservasiyasına deyil, sülhə ehtiyacı var. Birgə səyləri məhz bu istiqamətə yönəltmək lazımdır".

Azərbaycanın Rusiyadakı səfiri Metsamor AES məsələsinə də toxunub. O, Metsamor atom elektrik stansiyasının yüksək seysmik risk zonasında yerləşdiyini və "Çernobıl" tipli reaktorlara malik olduğunu vurğulayıb. Diplomat deyib: "Dağıdıcı Spitak zəlzələsindən sonra SSRİ-nin hakimiyyət orqanları Metsamor AES-in fəaliyyətinin dayandırılmasını məqsədəuyğun bildilər. Lakin 1995-ci ildə Ermənistan Respublikasının Hökuməti bu atom elektrik stansiyasının ikinci enerji blokunun işini bərpa etdi. Beləliklə, burada obyektiv təbii risklər göz önündədir. Qonşu ölkələrin real fəlakət perspektivinə bu cür sakit yanaşması təəccüb doğurur. Axı partlayış olarsa, sonrakı peşmançılıq fayda verməyəcək. İlk növbədə və ən çox Ermənistanın özü zərər görəcək, Gürcüstan, İran, Türkiyə və təbii ki, Azərbaycan da yaxınlıqdadır. Məhz buna görə biz beynəlxalq ictimaiyyəti və Rusiyanı yaranan təhlükələrin neytrallaşdırılmasına dair təsirli tədbirlər görməyə çağırırıq."

Səfir əlavə edib ki, Azərbaycan həmçinin "Ermənistanın bəzi hərbçiləri və deputatları, o cümlədən sabiq baş nazirinin məsuliyyətsiz bəyanatları və müharibə təhdidlərindən" narahatdır. P.Bülbüloğlu deyib: "Onlar nüvə silahı və ya nüvə tullantılarının istifadəsi ilə istehsal edilən "çirkli bomba" yaratmaq imkanına malik olduqlarını iddia edirlər. Məncə, sübut etməyə xüsusi ehtiyac yoxdur ki, artıq resursları tükənmiş Metsamor AES-dən faydalanmaqla radioaktiv komponentli döyüş qurğuları yaratmaq kimi eksperimentlər bütün dünyada ciddi fəsadlar doğura bilər."

**AZƏRTAC**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**10 iyun 2016-cı il.**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 30 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

# Bakıda NATO ekspert qrupunun işçi görüşü keçirilir



Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2016-cı il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, Şimali Atlantika Alyansının Nortvud Dəniz Komandanlığının ekspert qrupu ilə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin nümayəndələri arasında "Dənizdə təqibetmə əməliyyatları üzrə göyərtə-axtarış bölmələri" mövzusunda işçi görüşü keçirilir.

Hərbi Dəniz Qüvvələrinin bazasında təşkil olunan görüşdə dənizdə təqibetmə əməliyyatları üzrə göyərtə-axtarış bölmələrinin hazırlıq prosesində Azərbaycan HDQ-də və NATO-da tətbiq olunan standartlar, tapşırıqlar və fəaliyyətlər mövzusunda fikir mübadiləsi aparılır.



**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Ön xətdən reportaj*

# Bu dağlar, ulu dağlar...

Aylardı könlüm məni dağlara çəkir. Könlüm də ulu dağlar deyir, dilim də.

Yazın son ayının sərinliyində günlü yağışın içindən keçib dağlara gedirəm. Bu dağlar məni illərin o üzündə tanımışdı. Unudubmu görəsən? Görəsən, könlünü ala biləcəmmi? Duman-çiskin kürkü sürüşüb çiyinlərindən düşsə, hüsnünə doyunca baxardım!..

Bu dağlar, ulu dağlar...

Ulu dağların mehini duyunca kürlük eləyən könlüm məni əsgərlərlə görüşəcəyim anlara çəkir...

Düşüncələrimdə bir tərpəniş hiss eləyirəm. Bu tərpəniş sirli tərpənişdi. Bu tərpəniş sevgiyə görədi, ehtirama görədi...

Min illərdi əzəmətli dağlar deyilib, vüqarlı dağlar deyilib. İndi də belə deyilir. Min illərdi dağları əzəmətin, qürurun nümunəsi bilirik. Qürurlandığımız igidlərə, el-obanın cəfakeşi olan mərdlərə dağ vüqarlı oğul deyilib. Dağ vüqarlı oğulları dağlarda görmək bənzərsiz könül xoşluğuymuş! Qınayan olmasa, "Dağlar əzəmətini, qürurunu igidlərdən alıb", - deyərdim...

Dağlara niyə ulu dağlar deyirik?..

Zənnimcə, gen günündə də, dar günündə də el-obanın gərəyi olduğuna görə, gen günündə mehmanlarına qucaq açdığına, dar günündə ona sığınanlara özü boyda səngər olduğuna görə deyirik...

Bu dağlar, ulu dağlar...

Dağlara iz düşür, iz cığıra çevrilir, cığır yola. Əgər gələni-gedəni varsa, əgər gəlib-gedənlər keçdiyi cığırı ömrünün bir parçası eləyirsə. Dağlara yol belə düşür. O yolu salmaq da, o yolu keçmək də dağlara vurğunluqdu. Dağlara yol nə zaman düşüb? Bəlli deyil...

Bu dağlar, ulu dağlar...

Dağlara - ucalığa aparan yolun yolçularının dizinin taqəti azalan deyil. Bu ucalıq ruhumuzun keşikçisidi...

Bu yolun sonunda qürur var, qətiyyət var, dönməzlik var. O qürur, o qətiyyət Azərbaycan əsgəridi. O ucalıqda dayanıb ucalığa xor baxanların hər tərpənişini üyüdürən, mətərisləndiyi hər daşı xalqın tarixinin daş kitabəsi bilən Azərbaycan əsgəri ilin bu vaxtında da dağlarda qar qalağını əzib keçir. "Əsgərlərimiz yaxın vaxtlarda qarşıdakı dağların cığırlarındakı yad izləri də beləcə əzib keçəcək", - deyirəm.

Mayor Nemət Rəhimov döyüş növbəsindən qayıdan əsgərlərə baxıb, "Elədir" deyir. "Bu oğullar torpaqlarımızı işğaldan azad edəcək. Ali Baş Komandanın əmrinə hazırıq. Ən yaxşılar sırasında bu əsgərlər də olacaq."



Bu dağlar, ulu dağlar...

Zamanında şərlə mübarizə aparanlar dağlara yön tutardı, dağlara sığınardı, dağlardan mədəd umardı. Dağlar ona sığınanları heç zaman məğmun eləməyib. Əgər qəlbi paxıl deyilsə, əgər nəfsi iti deyilsə, əgər "ayağıma yer eləyim..." düşüncəsinin qulu deyilsə,...

Dağlara minlərlə şeirlər yazılıb. Bu, dağ atributuna söykənən yaşam, var olma fəlsəfəsi deyilmi? "Dağlar haramı halaldan seçə bilir (Aşıq Ələsgər). Bu ucalıqda da belədi. Zirvəsindəki oğulların qətiyyətini duyur, görür, o yanda gördüyü haram yerişlərə, haram tərpənişlərə dağ əzəmətiylə barmaq qıcayır. Onu səngər bilən əsgərlərin adından qıcayır!.." - düşünürəm. İnsafən, haqlıyam...

Qovğa çağında dağlıq ərazi - "qüdrətdən səngərli-qalalı dağlar" dövlətçiliyin cəfakeşlərinin - hərbçilərin ruh qardaşı olur; dağlar torpağı qoruyanları qoruyur. Hansı şeirdəsə oxuduğum "dağ qardaşım" ifadəsini son nəfəsiməcən unutmaram. Səngər sinəsinə güllələr dəysə də - yaralansa da, səngər sinəsi al qana boyansa da, dağ əsgər qardaşını qoruyur.

Vətən naminə, Vətənə gərəkdir deyə dağlara izlər, cığırlar, yollar düşüb. Bu yolla üzü ucalığa gedənlər özüylə Azərbaycan əsgərinə bir ürək tutumunca sevgi, ehtiram aparır, dönüşündə bir ürək tutumunca qürurla qayıdır ...

Dağlara düşən yol bizi torpağı bu ucalıqdan qoruyanlara çatdırır. Dağlarda yolboyu düşüncələrimdən ürəyimə süzülənlərin eynini görürəm: dağ vüqarlı oğulların qartal baxışları dağların duruşunu, əzəmətini necə mərdanəliklə tamamlayır!..

Leytenant Emin Kərimovu da, əsgərlərini də bu ucalıqda könül dünyasının ümid işığı, inam işığı bilənlərdənəm. O işıq bu ucalığa Lələtəpədən düşür...

O yüksəklikdə, o ucalıqda ilin-günün bu vaxtı qar yağır. Əlim Orxan Xudiyevin, Vüsal Rzayevin, Sahib Həsənovun, Rəşad Köçəriyevin, Şahin Əlirzayevin əllərində isinir. Ulu dağlar bu təması uğurlayır sanki...

Dağların ululuğu həm də budur: dağlar onu qoruyanları, onun ucalığından Vətəni qoruyanları dağ əqidəli eləyir.

Şahin Orxanın qollarına düzülmüş qarı təmizləyir. Leytenant Emin Kərimovun əli Şahinin çiyninə enir...

Öyrənirəm ki, əsgərlərin bir-birinə münasibəti həsəd aparılası səviyyədədir: "Əsgər dostluğu dağlarda daha mətin, daha dönməz olur", - deyir leytenant.

Xalq şairi Vaqif Səmədoğlunun "Mən burdayam, İlahi!" şeirini xatırlayıram. Bu ucalıqda əsgərlərimizin səssiz sözlərini hiss eləmək çətin deyil: "Biz burdayıq, Vətən!". Hiss edirəm və könlümdən üzülənlər səssiz söz biçimində baxışlarıma hopur: "Bu gün burdasınız, yaxın vaxtlarda orda - qarşıdakı yüksəkliyi, o yüksəkliyin o üzünü göstərirəm - olacaqsınız. "Biz burdayıq, Vətən!" kəlmələrini orda deyəcəksiniz!..."...

Könlüm şeirə köklənib:

*Bu da bir möcüzə!..*
*Bu ucalıqda*
*Nə gözəl bürüyüb*
*qar daşı, dağlar!*
*Sizə qardaş deyib*
*əl uzatmışam,*
*Əsgər qardaşımın*
*qardaşı dağlar!..*

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Hərbi təhsil*

# Zabit hazırlığı ordu quruculuğunda mühüm mərhələdir

***Xüsusi təyinatlı təhsil müəssisələrində tədrisin özünəməxsus xüsusiyyətləri var. Son vaxtlar ordu quruculuğunda həyata keçirilən islahatlar Silahlı Qüvvələrimizi zabit kadrları ilə komplektləşdirən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini də əhatə elədi. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 2015-ci il tarixli sərəncamı ilə ali hərbi məktəblərdə struktur dəyişikliyi oldu, üç məktəbin bazasında vahid məktəb yaradıldı. Bu, təbii ki, tədris prosesinin təşkilinə, ayrı-ayrı fənlərin tədrisinə, ümumiyyətlə, kursantların hərbi biliklərə daha dərindən yiyələnməsinə zəmin yaratdı.***





Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil-tədris prosesində həyata keçirilən yenilik, təbii ki, öz müsbət nəticələrini verdi. Bu proses Müdafiə nazirinin müvafiq təlimatına uyğun aparılır. Yeri gəlmişkən qeyd edim ki, məktəbdə nəzəri biliklər təcrübi biliklərlə vəhdətdə aşılanır. Kursantlar müəyyən dövrdən sonra (adətən 5-6 həftə) öyrəndikləri nəzəri bilikləri bilavasitə çöl şəraitində - çöl dərslərində məşğələlər şəklində tətbiq etməyi də öyrənirlər. Bu, öyrənilmiş nəzəri biliklərin möhkəmləndirilməsini təmin edir.

Son ildə tədris prosesində təcrübi (praktik) dərslərin sayı xeyli artırıldığından kursantların bu və ya digər təcrübi vərdişə yiyələnməsi xeyli asanlaşmışdır. Kursant bu və ya digər döyüş texnikasının istismar xüsusiyyətlərini də mükəmməl mənimsəyir, onun idarə edilməsini də, atışlar aparmağı da öyrənir. Bir sözlə, kursant ordu sıralarına yüksək hərbi biliyə malik olan zabit kimi gedir.

Cari tədris ilindən etibarən gənc zabitlər hərbi xidmətə bilavasitə məktəbdən göndəriləcək, daha doğrusu, məktəbi bitirib, diplom və sertifikat alıb bilavasitə hərbi hissəyə - hərbi xidmət yerinə gedəcək.

Cari tədris ilindən etibarən məktəbdə kompüter dəstəkli simulyasiya mərkəzinin yaradılması da tədrisin təkmilləşdirilməsində, nəticə etibarilə zabit hazırlığı prosesində önəmli rol oynayacaqdır. Bir sözlə, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində zabit kadrları hazırlığı Azərbaycan Respublikası Prezidentinin, Müdafiə nazirinin tələb və göstərişləri əsasında yüksək səviyyədə həyata keçirilir.

Kursantlar imtahanlara, əsasən, ixtisaslaşmış siniflərdə hazırlaşırlar. Məqsəd gənc zabitlərə kifayət qədər əhatəli hərbi bilik aşılamaqdır və necə aşılandığını imtahanlar göstərir. Nəticələrə əsasən deyə bilərik ki, məqsədə nail oluruq...

Kursantların fiziki hazırlığına da ciddi diqqət yetirilir. Məktəbdə hər tabor üçün ayrıca idman şəhərciyi yaradılıb ki, bu da kursantların fiziki vərdişlərinin artırılması üçün mühüm vasitələrdən biridir. Yeri gəlmişkən, bu, özünü dövlət imtahanlarında da göstərdi. Kursantlar fiziki hazırlıq imtahanından kifayət qədər yüksək bal topladılar.

Dövlət imtahanları ərəfəsində məktəb rəhbərliyinin göstərişinə əsasən, bütün kursantların hazırlıq səviyyəsi haqqında arayış hazırlandı, əlavə dərslər, məşğələlər təşkil edildi.

Arxada qalan imtahanların nəticələri sevindiricidir. Artilleriya, rabitə, kəşfiyyat, avtomatik idarəetmə və başqa ixtisaslar üzrə nəticələr daha yüksəkdir. Bütün kursantlar imtahanları uğurla verdilər. Qeyd etməyi vacib bilirəm ki, kursantların əksəriyyəti imtahanlardan "əla" və "çox yaxşı" qiymətlər aldılar. Bu nəticə bir neçə amillə bağlıdır: tədris prosesinin düzgün təşkili, müəllimlərin, zabitlərin məsuliyyəti və tədris prosesinə qibtəediləsi münasibəti, kursantların fərdi marağı, istəyi. Bu amillərin vəhdəti özünü nəticələrdə göstərir. Sevindirici nəticələrin əldə edilməsində polkovnik Əşrəf Hüseynovun, polkovnik-leytenantlar Səmədət Quliyevin, Ənvər Hüseynovun, Əlamdar Hüseynovun xidmətləri böyük olub. Kursantlardan Mais Əsgərovun, Rəşad Cəlalovun, Sənan Cəfərzadənin, Elmir Heydərovun, Orxan İmanovun, Azər Quliyevin və başqalarının yüksək nəticələriylə fəxr edirik.



Kursantlarımızın sonrakı imtahanlarda da uğurlu nəticələr göstərəcəyinə, hərbi hissələrə yüksək hərbi biliyə malik zabit kimi yola düşəcəklərinə inanırıq.

**Polkovnik**
**Ruslan MƏMMƏDOV,**
**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi rəisinin tədris işləri üzrə müavini**

# Hərbi xidmətə çağırışdan möhlət hüququ magistrant və doktorantlara da şamil olunacaq

***İyunun 7-də Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin elm və təhsil komitəsi ilə birgə iclası olub.***

AZƏRTAC xəbər verir ki, iclasda "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinə baxılıb.

Qanun layihəsi haqda məlumat verən Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bildirib ki, hərbi xidmətə çağırışdan möhlət hüququ indiyədək ancaq bakalavriat pilləsində təhsil alanlara verilirdi. Qanunun 21-ci maddəsinə edilən dəyişikliyə görə, bundan sonra həmin möhlət hüququ magistratura və doktorantura səviyyələrinə də şamil olunacaq. Həmçinin xarici ölkələrdə əyani təhsilalma formasında təhsil alanlara ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələrində, tibb təhsili üçün ali baza tibb təhsili və rezidenturada (internaturada) təhsil alanlara müvafiq təhsilini bitirənədək çağırışdan möhlət hüququ veriləcək.

Sonra elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli qanun layihəsinə dair fikirlərini bölüşüb. "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda bu mütərəqqi dəyişikliyə görə ölkənin elm və təhsil ictimaiyyəti adından dövlətimizin başçısına minnətdarlıq bildirən komitə sədri qeyd edib ki, magistr və doktorantlara çağırışdan möhlət hüququnun verilməsi təhsilin fasiləsizliyini təmin edəcək, gənclərin elmə gəlişinə təkan verəcək.

Hər iki komitədən deputatlar rəylərini bildirdikdən sonra "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Birgə iclas yekunlaşdıqdan sonra müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi işini davam etdirib.

Ziyafət Əsgərov "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və təsirinin azaldılması sahəsində əməkdaşlıq haqqında" Sazişi təqdim edib və bu sənədin Azərbaycanın dövlət maraqlarına uyğun olduğunu vurğulayıb.

Gündəlikdəki digər məsələlərin şərhi zamanı bildirildi ki, "Hərbi qulluqçuların statusu haqqında" qanuna edilən texniki xarakterli dəyişiklik vətəndaşların hüquq və mənafelərinin qorunması baxımından çox vacibdir. "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" və "Sərhəd qoşunları haqqında" qanunlara təklif olunan dəyişikliklər isə qanunvericiliyin uyğunlaşdırılması məqsədini daşıyır.

Sonda qərara alındı ki, komitədə baxılan bütün məsələlər Milli Məclisin plenar iclasının müzakirəsinə təqdim olunsun.

*Düşüncələr*

# Aprel döyüşləri: səbəb və nəticələr



Azərbaycanın düşmənlə təmas xəttində aprelin ilk günlərində törədilən silahlı təxribatlar miqyasına görə atəşkəs dövründə işğalçı Ermənistanın ölkəmizə qarşı ən böyük silahlı qəsdi oldu. Qəsbkarlar nəinki ordumuzun mövqelərini, həmçinin cəbhə bölgəsindəki yaşayış məntəqələrimizi dağıdıcı silahlardan atəşə məruz qoydular. Hərbçilərimizlə bərabər dinc vətəndaşlarımız da itkilərə, xeyli ev və sosial obyekt dağıntılara məruz qaldı. Əlbəttə, azğınlaşmış düşməni cavabsız qoymaq olmazdı və qarşı tərəfi susdurmaq, dinc əhalimizin yaşayışı üçün təhlükə törədən mühüm yüksəklikləri ələ keçirmək və bununla da erməni təxribatçılarına qətiyyət və güc nümayiş etdirmək lazım idi. Bu məqsədlə ordumuzun cəbhə xəttində yerləşən bölmələri qısa vaxtda düşmənə layiqli cavab verdi.

Adətən, Ermənistan tərəfindən atəşkəsin belə intensiv pozulması halları beynəlxalq aləmdə ölkəmizin qazandığı uğurların ardınca, ya da sülh danışıqları ərəfəsində baş verir. Bu dəfə düşmənlərimizi qıcıqlandıran amilləri ölkəmizin paytaxtında aprelin birinci ongünlüyündə keçirilmiş Beynəlxalq Davos iqtisadi forumu, həmçinin dövlət başçımızın ABŞ-a səfəri və Azərbaycanın mühüm diplomatik uğurları ilə izah etmək istərdim. Martda Prezident İlham Əliyevin Birləşmiş Ştatların mühüm dövlət və ictimai xadimləri, o cümlədən dövlət katibi və vitse-prezidenti ilə görüşləri olmuşdu. Bu görüşlərin hər birində Azərbaycanın üzləşdiyi silahlı münaqişənin təfərrüatlarını izah edən dövlət başçımızın mövqeyi tam dəstəkləndi. ABŞ-ın rəsmiləri ölkəmizin ədalətli mövqeyinə və ərazi bütövlüyümüzün təmin edilməsinə tərəfdar olduqlarını bildirdilər. Həmin görüşlər dünyanın nüfuzlu mediasında bir neçə gün geniş şərh edildi. Müstəqil dövlətimizin uğurlarına qısqanc yanaşan bəzi qüvvələr, ən birincisi isə düşmənimiz olan Ermənistan tərəfi yaxşı anlayırdılar ki, növbəti sülh danışıqlarında üstünlük Azərbaycanın tərəfində olacaqdır. Buna görə də düşmənlərimizdən ənənəvi təxribatlar gözlənilən idi.

Aprel savaşına səbəb olan, həm də qələbəmizi təmin edən ən vacib amillərdən biri də xalqın və ordunun haqq uğrunda mübarizə əzmi idi. Azərbaycanın dövlət başçısının da dəfələrlə bəyan etdiyi kimi, əzəli torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizəmiz haqq-ədalətə söykənir. Yəni ölkəmizin başqalarına ərazi iddiası yoxdur, sadəcə beynəlxalq hüquqla təsbit olunmuş ərazilərini işğaldan azad etmək məqsədi güdür. Azərbaycan bu münaqişənin yalnız ərazi bütövlüyümüzün təmin edilməsi üçün sülh yolu ilə həllinə və bəşəri dəyərlərə sadiqliyini daim nümayiş etdirib. Birmənalı olaraq dövlətimiz hər iki tərəfdən qan tökülmədən bu məsələnin haqlı mövqedən həllində israrlıdır. Amma erməni rəsmiləri daim aqressiv mövqe tuturlar.

Ermənistan işğalçıları tərəfindən atəşkəsin müntəzəm pozulmasına şahid olan beynəlxalq təşkilatların rəsmiləri də artıq yaxşı başa düşürlər ki, münaqişənin həllinə əngəl törədən əsas manea hansı qüvvələrdir. Artıq nüfuzlu beynəlxalq qurumların hesabatlarında torpaqlarımızın 20 faizinin erməni silahlı birləşmələrinin silahlı müdaxiləsi nəticəsində zəbt edildiyi, həmçinin bir milyon yurddaşımızın doğma ev-eşiklərindən zorla didərgin salınması faktı öz əksini tapıb. Bu məsələyə dair BMT kimi mötəbər təşkilatın qəbul etdiyi məlum qətnamələr isə neçə illərdir ki, yerinə yetirilmir. Deməli, işğalçı dövləti dəstəkləyən qüvvələr dünyada ikili standartlara əsaslanan siyasətin həyata keçirilməsinə göz yumurlar. Bu isə Ermənistanı daha da azğınlaşdırır və qəsbkarlıq niyyətini davam etdirməsinə imkan yaradır. Azərbaycan dəfələrlə bəyan edib ki, torpaqlarımızın işğalına görə məsuliyyət ilk növbədə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Bəzən nüfuzlu dövlətlərin rəsmi dairələri Azərbaycanı sürətlə silahlanmada, öz ordusunu müasir silah və hərbi texnika ilə təmin etməkdə qınayırlar. Halbuki Azərbaycan bir tərəfdən dövlət müstəqilliyini möhkəmləndirmək üçün, digər tərəfdən də illərdən bəri işğala məruz qaldığına və sülh danışıqlarında heç bir nəticə əldə edilmədiyinə görə, hərbi qüdrətini artırmağa səy göstərir. Axı Azərbaycan xalqının səbri tükənməz deyil, illər uzunu doğma yurd-yuvasından zorla didərgin salınmış bir milyondan artıq vətəndaşımız öz haqqını - ata-baba ocağına qayıtmasını tələb edir. Beləliklə, Azərbaycan bir müstəqil dövlət olaraq üzləşdiyi münaqişənin istənilən yolla həllində israrlıdır. Göründüyü kimi, cəmiyyətimizdə artıq orduya dəstək çağırışlarının eşidilməsi başa düşüləndir və bu özünü aprel hadisələrində bütün aydınlığı ilə göstərdi. Müxtəlif bölgələrdən insanların vuruşmaq üçün Müdafiə Nazirliyinə müraciət etməsi bir tərəfdən ordumuza dəstək nümayişi idisə, digər tərəfdən insanların müharibə şəraitindən yorulduğunu sübut edən bir amil idi.

### İnam və etimad: ruh yüksəkliyi yaradan əsas amil

Aprelin 2-dən başlanan qısamüddətli hərbi əməliyyatın səbəb və nəticələrini təhlil edərkən dövlətin öz əsgərinə inam və etimadını xüsusilə qeyt etməyə dəyər. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu strategiyası müasir dövrdə uğurla davam etdirilir. Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2003-cü ildə siyasi hakimiyyətə gəlişi ilə ordu quruculuğu məsələsinin dövlətimizin əsas istiqamətlərindən biri olduğunu bəyan edib. Bu məqsədlə dövlət büdcəsindən orduya ayrılan xərclərin həcmi on dəfələrlə artırılıb. Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütövlükdə dövlət büdcəsindən artıqdır, bu isə orduda silah və texnika ilə təminatdan, döyüş hazırlığı tədbirlərindən tutmuş sosial məsələlərin həllinə qədər bütün sahələrin sürətli inkişafına səbəb olub. Dövlətin öz əsgər və zabitinə olan qayğısı isə ordunun şəxsi heyətinə yüksək döyüş ruhu aşılayır. Azərbaycan əsgəri hiss edəndə ki, dövləti və xalqı onun güzəranı üçün əlindən gələni əsirgəmir, bu zaman ürəklə xidmət etməyə, üzərinə düşən vəzifənin öhdəsindən bacarıqla gəlməyə çalışır.

"Vətən qarşısında borcunu yerinə yetirən və torpaqlarımızın müdafiəsində dayanan, həmçinin ərazi bütövlüyümüz uğrunda son nəfəsinədək mübarizəyə hazır olan əsgər və zabitlərimiz cəmiyyətdə yüksək hörmət və ehtirama layiqdirlər", - deyən Prezident İlham Əliyev cəbhə bölgələrinə səfərləri zamanı ön xətdə xidmət edən döyüşçülərə baş çəkir və burada şəxsi heyətin qayğıları ilə maraqlanır. Dövlət başçısı ilə təmasda olan döyüşçü əgər arzu və təkliflərini onunla bölüşürsə, bu qarşılıqlı etimad deməkdir və qazandığımız aprel zəfərinin arxasında belə sarsılmaz birlik, yəni Ali Baş Komandanın öz əsgərinə etimadı dayanır.

Son illər cəmiyyətdə vətənpərvərlik nümunəsi kimi qarşılanan və ordunun şəxsi heyətinin döyüş əzmini artıran əsas amillərdən biri də Müdafiə Nazirliyi rəhbərliyinin xətti ilə həyata keçirilən və dövlət qurumları tərəfindən dəstəklənən vətənpərvərlik tədbirləridir. Bu bir həqiqətdir ki, adamlara, xüsusən gənclərə göstərilən diqqət və qayğı onları daim həvəslə çalışmağa ruhlandırır. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ordu rəhbərliyinə gəldiyi gündən cəbhə xəttinə səfərləri və ondan nümunə götürən generalların əsas vaxtını səngərlərdə keçirməsi döyüşçüyə olan diqqət və qayğının bariz nümunəsidir. Artıq orduda belə bir dəyərli ənənə yaranıb: xalqımızın əziz bayramlarında rəhbərlik cəbhə xəttində olur. Səngərdə döyüş növbəsi keçirən əsgərlər görəndə ki, Müdafiə naziri bayram axşamını öz ailəsi ilə yox, onlarla keçirir, onda ordunun şəxsi heyətində nə qədər yüksək əhval-ruhiyyə yaranır. Nazir əsgərlə duz-çörək kəsir, süfrəyə qoyulan çörəyi birinci olaraq əsgərə təklif edir. Bax, bununla əsgərlə öz komandanı arasında inam və etibar hissi formalaşır, bu həmrəyliyi isə heç bir qüvvə sarsıda bilməz. Məhz bu həmrəylik aprel döyüşlərində qələbəmizi təmin edən əsas şərtlərdən biri idi.

Şəhər və rayonlarımızda təşkil edilən hərbi vətənpərvərlik tədbirləri, tarixi sərkərdələrimizin, Milli Qəhrəmanlarımızın və şəhidlərimizin xatirəsinə keçirilən izdihamlı mərasimlər həm ordunun şəxsi heyətinə, həm də cəmiyyətimizə, gənc nəslə aşılanan vətənpərvərlik nümunələridir. Hamı görür və başa düşür ki, dövlət öz şəhidinə necə yüksək qiymət verir, onların ailə üzvləri hər yerdə nə qədər sayğı və ehtiramla qarşılanır.

Yaxşı yadımdadır, Milli Qəhrəman Mübariz İbrahimovun dəfn mərasiminə qatılan dövlət başçısı üzünü şəhidin atasına tutaraq demişdi: "İndi sənin övladın hamımızın, bütün Azərbaycanın, böyük türk dünyasının fəxridir. Qoy düşmənlərimiz anlasınlar ki, Azərbaycan Ordusu sıralarında yüzlərlə, minlərlə belə oğul yetişir və yetişəcəkdir". Doğrudan da, aprel savaşı xalqımızın qəhrəman, vətənpərvər oğullarını üzə çıxarmaqla tariximizin yeni qürur və rəşadət səhifəsini yaratdı. Əfsanəvi şücaətləri ilə dünyaya səs salmış Milli Qəhrəmanlarımız Murad Mirzəyev, Samid İmanov və Şükür Həmidov kimi igidlərimiz, doğrudan da, düşmənə izah etdilər ki, qarşılarında yüksək hazırlıqlı ordu dayanır. Prezidentimizin qeyd etdiyi kimi, bu ordunun sıralarında bu gün də, bundan sonra da Mübarizlər, Fəridlər, Muradlar, Samidlər, Şükürlər yetişəcəkdir.

### Cəmiyyətə vətənpərvərlik nümunəsi

Aprel şəhidlərimizin qırx mərasimləri qeyd olunan günlər idi. Axşam televiziyada belə izdihamlı tədbirlərin birinə tamaşa edən tələbə qızım bərk kövrəlmişdi, istirahət günü onunla İkinci Fəxri xiyabana getməyimi xahiş etdi. Dediyimiz vaxtda müqəddəs ziyarət yerlərimizdən birinə yollandıq. Mübarizin məzarına baxdıq. Sonra aprel döyüşlərində şəhidlk zirvəsinə yüksəlmiş döyüşçülərimizi ziyarət etdik. Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyevin məzarı qarşısındayıq. Məzardan boylanan bir igid zabitimizin nurlu sifətini seyr etdikcə xəyal məni ağuşuna alır. Mühüm döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gələn vətənpərvər komandirlərimizdən biri idi. Qızıma onun qəhrəmanlığından, döyüş yolundan danışıram. Muradı indi bir ailə, bir nəsil yox, böyükdən-kiçiyə, qocadan-cavana hər bir azərbaycanlı tanıyır. İllər ötəcək, amma bu qəhrəmanlarımızın adları xalqımızın yaddaşından silinməyəcək, çünki onlar qısa, lakin mənalı bir ömür - Vətənə həsr edilən ləyaqətli həyat yolu yaşadılar.

Bu günlərdə Müdafiə Nazirliyində şəhid hərbçilərimizdən birinin medalı nazir müavini general-leytenant Kərim Vəliyev tərəfindən onun 7 yaşlı oğluna təqdim edildi. Yaxasına medal taxılan balaca isə şəstlə əlini alnına dirəyib "Vətənim Azərbaycana xidmət edirəm!" dedi. Bu hadisə tədbirdə iştirak edən hər kəsi təsirləndirdi. Döyüş yolu keçmiş generallarımızdan biri isə ayağa qalxıb "Bu xalqın, bu millətin döyüş ruhunu heç bir qüvvə sarsıda bilməz", - dedi.

Ötən ay Füzuli bölgəsinə ezamiyyətə gedəndə Lələtəpə zirvəsinə baş çəkdim və bu mühüm yüksəkliyin alınmasında, qorunmasında xidmətləri olan döyüşçülərimizlə söhbətləşdim. Hər kəs - əsgər də, zabit də qürurlu görünürdü. Axı, uca zirvədə üçrəngli bayrağımız onların zəhməti, qəhrəmanlığı hesabına dalğalanır. Orada baş leytenant Elşad Hasilovla tanış oldum. Aprelin 1-də ad günü imiş, komandiri ona evə getməyi, ailəsi ilə birgə doğum gününü qeyd etməsini tapşırır. Amma zabit sonadək döyüşü tərk etmir. Baş leytenant mənə dedi ki, komandirinin yaralandığını görən kimi tez onu çiyninə alıb təhlükəli mövqedən uzaqlaşır və vaxtında onu həkimə çatdıra bilir. Yenə komandir qayğılı baxışlarını zabitinə zilləyib "Axı sənə demişdim ki, döyüşə girmə, get ailənlə ad gününü keçir", deyir. Bax, budur, Azərbaycan zabitinin qəhrəmanlığı, cəmiyyətə, gəncliyə örnək olan vətənpərvərlik nümunəsi. Qoy düşmən yaxşıca anlasın ki, belə əxlaqi dəyərləri ilə seçilən zabitlərimiz bir deyil, beş deyil, yüzlərlədir.

Aprel döyüşlərində qazandığımız qələbə düşmənə sarsıdıcı mesaj, Azərbaycan cəmiyyətinə isə qəhrəmanlıq nümunəsi olmaqla ən yeni tariximizin ən şərəfli səhifələrindən biri oldu!

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

*Vətənpərvərlik*

# Azərbaycan vətəndaşı qəhrəmanlıq ruhunda formalaşır

***Təhsil cəmiyyəti inkişaf etdirən əsas amillərdəndir. Yalnız vətənpərvər, savadlı, müasir dünyagörüşlü gənclərin hesabına ölkədə uğurlar qazanmaq, beynəlxalq arenada Azərbaycanı layiqincə təmsil etmək mümkündür.***

Ümummilli lider Heydər Əliyev:
*İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsəd Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır.*

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın təhsil sisteminin qarşısında duran məqsəd və vəzifələrdən bəhs edərkən təlim-tərbiyə işinin düzgün qurulmasının böyük amalların, ideyaların gerçəkləşməsi naminə, bütövlükdə xalqın və ölkənin sabahkı taleyi üçün son dərəcə vacib əhəmiyyət daşıdığını konkret şəkildə nəzərə çatdırırdı: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsəd Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır".

Bu günlərdə Sabunçu rayonundakı 96 saylı tam orta məktəbdə oldum. Məktəb şəhid məzunu İlqar Əliyevin adını daşıyır. Şəhid məzunların adlarının məktəblərə verilməsi şox təqdirəlayiq haldır. Mütəxəssislər bunun gənclərimizin vətənpərvərlik tərbiyəsində böyuk önəm daşıdığını bildirirlər.

Məktəbin dəhlizində eşitdiyimiz Dövlət himninin sədaları bizi qeyri-ixtiyari olaraq sinif otaqlarından birinə daxil olmağa sövq edir. Gördüklərimizdən qürurlanırıq. Birinci sinif şagirdləri əllərini ürəklərinin üzərinə qoyaraq cani-dildən himnimizi ifa edirdilər. Onlar içəri daxil olmağımıza məhəl qoymadan himni sonadək oxudular.



Müəllimə Məhbubə Kazımova söhbətimizdə bildirdi ki, şagirdlər hər dərs gününə Dövlət himnini oxumaqla başlayırlar. "Dövlət himninə dərin ehtiram hər kəsin vətənpərvərlik borcudur. Dövlət himni müstəqilliyin, suverenliyin müqəddəs rəmzidir. Biz müəllimlər gələcəyimizin etibarlı təminatı olan gənclərimizi hazırlayırıq. Onlarda Vətənə sevgi, sədaqət, qəhrəmanlarımıza ehtiram hisslərini tərbiyə edirik."

Məhbubə müəllimənin iştirakıyla şagirdlərlə səmimi söhbət elədik.

- Dövlətimizin rəmzləri hansılardır? - sualına şagirdlər cavab vermək üçün əl qaldırmışdılar. Onlardan biri ayağa qalxaraq: - Azərbaycan Respublikasının dövlət rəmzləri Dövlət bayrağı, Dövlət gerbi və Dövlət himnidir. Hər birimiz bu rəmzlərə hörmət etməliyik, - deyə qürurla cavab verdi.

"Himnimizi oxuyarkən niyə əlinizi urəyinizin üstünə qoyursunuz?" sualına birinci sinif şagirdinin cavabı belə oldu. "İnsan ürəyi olmadan yaşaya bilməz. Amma bizim Vətənimizə olan sevgimiz ürəyimizdən belə üstündür." Bəli, bu cavabı yeddi yaşlı Azərbaycan vətəndaşından eşidirəm. Sözün həqiqi mənasında, qürurvericidir, iftixar ediləsidir.




Məktəbin dəhlizində ümummilli liderimiz Heydər Əliyevin, tarixi şəxsiyyətlərin, şəhid məzunların həyat və fəaliyyətindən bəhs edən məlumatlardan ibarət stendlər asılıb. Fasilə vaxtı şagirdlərin bu lövhələrdən məlumatları oxuyub müzakirə aparmaları da nəzərimdən qaçmadı. Görkəmli hərb xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, məşhur sərkərdə Səməd bəy Mehmandarovun anadan olmasının 160 illiyi ilə əlaqədar hazırlanmış lövhənin ətrafında toplaşmış bir qrup şagirdlə müəllimə Şəfiqə Salmanova söhbət aparırdı. O bildirir ki, general Mehmandarov döyüş meydanlarında yüksək peşəkarlığı və zabit şərəfinə hədsiz sədaqəti ilə Azərbaycan xalqının hərb salnaməsinə unudulmaz səhifələr yazmışdır. "Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən ordu quruculuğu prosesində hərbi potensialın məharətlə istiqamətləndirilməsi və konkret tarixi şəraitdə ölkənin ərazi bütövlüyünün, təhlükəsizliyinin layiqincə təmin edilməsi məhz onun fəaliyyətinin nəticələridir." Daha sonra Şəfiqə müəllimə ordumuzun aprelin əvvəllərində qazandığı uğurlardan, xalqımıza yaşatdığı qələbə sevincindən böyük ruh yüksəkliyi ilə söz açdı. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Mübariz İbrahimovun və Fərid Əhmədovun vida mərasimindəki çıxışında dediyi: "Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi qəhrəmanlar vardır. Onlar öz doğma torpaqlarını azad etmək üçün hər an mübarizəyə hazırdırlar" sözlərinin aprel hadisələrində bir daha təsdiqini tapdığını qeyd etdi.

Ədəbiyyat dərsində iştirak edən zaman altıncı sinif şagirdlərinin timsalında yeniyetmələrdə vətənpərvərlik hisslərini, aprel döyüşləri ilə bağlı onların nə dərəcədə məlumatlı olduqlarını öyrənmək istədim. Fənn müəllimэsi Sveta Sadıqova şagirdlərinin Vətənimizə, millətimizə layiq olacaqlarına inandığını bildirdi:



- Belə vətənpərvər ruhlu yeniyetmələrin sabahımızın avanqard qüvvəsi olacağına heç bir şübhə yoxdur. Məktəbimizdə Vətəninin adını hər şeydən uca tutan, cəsur, istedadlı gənclər yetişir və biz gələcəkdə onların çox böyük nailiyyətlər əldə edəcəklərinə inanırıq.

Altıncılardan aprelin əvvəllərində Azərbaycan Ordusunun uğurları barədə soruşduq. Hamısı bilgilərini bizimlə bölüşmək istədi. Onlar qısa hərbi əməliyyatlarda əldə edilmiş nailiyyətlərimizdən, mühüm əhəmiyyətli yüksəkliklərin düşmən tapdağından azad edilməsindən böyük ruh yüksəkliyi ilə söz açaraq düşmən üzərində Qələbənin uzaqda olmadığına inandıqlarını dilə gətirdilər. Həmçinin, bu döyüşlər zamanı şəhidlik zirvəsinə ucalmış igidlərimizdən Murad Mirzəyevə, Samid İmanova, Şükür Həmidova Azərbaycan Prezidenti tərəfindən "Azərbaycanın Mlli Qəhrəmanı" kimi ən yüksək fəxri adın verilməsindən danışır, onların vətənpərvərliyini özlərinə örnək bildiklərini deyirlər. Şəhidlərin vida mərasimlərində şəhid tabutlarının üçrəngli Dövlət bayrağımıza bürünməsini və izdihamlı dəfnini unutmayacaqlarını bildirirlər.

Bu gün vətənpərvərlik dedikdə Vətənin göz bəbəyi kimi qorunmasını, onun hər qarışı uğrunda canlarından da keçməyə hazır olan oğulları düşünürük.

Müasir cəmiyyətimizdə gənc nəsil vətənpərvərlik və mənəvi dəyərlərin təsiri altında formalaşır. Bu gün Azərbaycanda gənclərin vətənpərvərlik tərbiyəsi ən yüksək səviyyədədir. Bu sahədə atılan hər addım, həyata keçirilən hər islahat, hər bir tədbir, ilk növbədə, Azərbaycanın parlaq gələcəyinə hesablanıb. Böyük gələcəyə, qürurlu, vətənpərvər gəncliyə malik olan millətin, xalqın isə hər sabahı xoşbəxtliklə açılır.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Cari ildə 180 Qarabağ müharibəsi əlili və şəhid ailəsi mənzillə təmin olunub

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Tərtər və Ağcabədi rayonlarının hər birində 4 ədəd olmaqla, ümumilikdə 8 ədəd fərdi yaşayış evi Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin istifadəsinə verilib.***

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, evlərin istifadəyə verilməsi tədbirlərində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, müvafiq rayonların İcra Hakimiyyətlərinin rəsmiləri, əlil ictimai təşkilatlarının və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər. Tədbirlərdə Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu sosial siyasət kursunun hər bir vətəndaşın rifahının yaxşılaşmasına, eyni zamanda sosial cəhətdən həssas təbəqələrdən olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə şərait yaratdığı vurğulanıb. Bildirilib ki, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunduğu ölkəmizdə bütün sosial proqramlar, o cümlədən müharibə əlilləri və şəhid ailələrinin yeni mənzillərlə təminatı işləri də uğurla davam etdirilir.



Dövlət başçısının 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən, respublikamızın bölgələrində fərdi və çoxmənzilli yaşayış evləri inşa olunaraq Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin istifadəsinə verilir. Cari ildə də bu istiqamətdə məqsədyönlü işlər aparılır. Bu ilin ötən dövründə Siyəzən, Şabran, Qusar, Şamaxı, Ağstafa, Qazax, Biləsuvar, Sabirabad, İmişli, Füzuli, Oğuz, Şəki, Beyləqan və digər rayonlarda fərdi yaşayış evləri, Beyləqan rayonunda çoxmənzilli yaşayış binası, Abşeron rayonunda hazır yaşayış binalarından alınaraq təmir etdirilmiş mənzillər həmin insanlara təqdim edilib. Ümumilikdə cari ildə artıq 180 nəfər Qarabağ müharibəsi əlilinin və şəhid ailəsinin yeni mənzillərlə təminatı həyata keçirilib.

Cəbhəyanı rayonlarda da müvafiq şəxslər üçün mənzil tikintisi uğurla həyata keçirilir. Bu işlərin davamı kimi, ötən il Tərtər rayonunda 54 mənzilli yaşayış binası, Ağcabədi rayonunda 14 ədəd fərdi yaşayış evi Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin istifadəsinə verilib. Hazırda isə bu rayonların hər birində daha 4 ədəd fərdi yaşayış evi həmin insanlara təqdim olunur.

Yeni fərdi yaşayış evləri ilə təmin edilən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri sosial təminatlarının daim gücləndirilməsindən razılıqla söz açıblar. Onlar hərtərəfli diqqət və qayğı ilə əhatə olunmalarına, hazırda isə yeni fərdi yaşayış evləri ilə təmin edilmələrinə görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

İstifadəyə verilən 8 ədəd fərdi yaşayış evindən 2 ədədi Qarabağ müharibəsi əlillərinə, 6 ədədi isə şəhid ailələrinə təqdim olunub.

## Xarici hərbi xronika

### Amerika ordusunda yeniliklər

Amerika ordusu yüksək sürətli uçan aparatın sınağını keçirib və bununla yanaşı "terminator"un yaradılmasına yüz milyon dollar vəsait ayırıb. Verilən məlumata görə, yeni silah "Qabaqcıl hipersəsli silah" və yaxud da "AHW" adını alıb. Bu silahla planetin istənilən nöqtəsində yerləşən hədəfi məhv etmək olar. Sınaq zamanı silah 3700 kilometrə qədər məsafəni qət edib. ABŞ hökuməti bildirib ki, bu silahı yaratmaqda əsas məqsəd beynəlxalq terrorizmə qarşı mübarizəni gücləndirməkdir. Bəzi məlumatlara görə, Amerika rəhbərliyi tərəfindən ona sərf etməyən siyasi qüvvələri devirmək üçün də belə müasir silahdan istifadə edilə bilər. Bu silahın sınağından başqa Amerika hərbçiləri bioloji döyüş maşınlarının konsepsiyasını da hazırlamağa can atırlar. Onların hazırlanması üçün hər il külli miqdarda vəsait ayrılır. Süni intellektə malik olan döyüş robotunun hazırlanması da nəzərdə tutulur. Lockheed şirkəti "Nuls" adını almış xüsusi döyüş geyim dəsti hazırlayıb. Bu geyimlə 100 kiloqrama qədər yüklə saatda16 kilometrə qədər hərəkət etmək mümkün olacaq.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Döyüşçü qadınlarla görüş

***Bu günlərdə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin kitabxanasında tanınmış yazıçı-publisist Zemfira Məhərrəmlinin Qarabağ mövzusunda yazdığı əsərlərin qəhrəmanları olan döyüşçü qadınlarla görüşü keçirildi.***

Tədbirdə qeyri-hökumət təşkilatlarının nümayədələri, şəhid ailələri, keçmiş döyüşçü qadınlar və digər qonaqlar iştirak edirdilər. Dəyirmi masa iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Dövlət himni səsləndirildi. Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyinin sədri Radə Abbas yazıçı-publisist Zemfira Məhərrəmli ilə görüşün keçirilməsinə şərait yaradan Mərkəzi Zabitlər Evinin rəhbərliyinə minnətdarlığını bildirdi, ordumuzun aprel döyüşlərində qələbəsindən, zabit və əsgərlərimizin yüksək döyüş ruhundan danışdı. Torpaqlarımızın azadlığı uğrunda Ali Baş Komandanın əmrinə keçmiş döyüşçü qadınların da hər an hazır olduğunu diqqətə çatdırdı.

Qeyd edim ki, Z.Məhərrəmli Qarabağ müharibəsi illərində torpaqlarımızın azadlığı uğrunda döyüşlə-



rə atılan Vətənin mərd, qeyrətli qızlarının həyat və döyüş yoluna işıq saçan bir neçə kitabın - "Döyüşə qızlar gedir", "Qarabağda savaş var" (ingilis dilində Türkiyədə çap edilib), "Qırx qız dastanı", "Qarabağ müharibəsi şəhid qadınların gözü ilə" və "Qarabağ müharibəsi: qadınlar da vuruşurdular" (rus dilində Sankt-Peterburqda nəşr edilib) müəllifidir. Eyni zamanda onun Azərbaycanın Milli Qəhrəmanları Salatın Əsgərovaya və Gültəkin Əsgərovaya həsr etdiyi hekayələri orta məktəb dərsliklərinə - "Ana dili", "Oxu" kitablarına salınıb.

Tədbirdə çıxış edən keçmiş döyüşçü qadınlardan Kəmalə Qəhrəmanova, Xanımzər Həsənova, Gülpəri Sərkərova, Rüxsarə Cumayeva, Zübeydə Abdullayeva, Aidə Əsədova, Təranə Mursaqulova və Ruhəngül Hüseynli o zaman müstəqilliyini yenicə qazanmış respublikamızın üzləşdiyi çətin, ağır günlərindən cəbhə xatirələrindən danışdılar. Sonda onlar bu gün də torpaqlarımızın erməni qəsbkarlarından azad edilməsi naminə döyüşlərə hazır olduqlarını diqqətə çatdırdılar.

Çıxış üçün söz alan Zemfira Məhərrəmli gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan belə tədbirlərin təhsil ocaqlarında keçirilməsinin önəmini vurğuladı, yaradıcılığında Qarabağ mövzusunu davam etdirəcəyini bildirdi və bu istiqamətdə görəcəyi işlər barədə məlumatlar verdi.

Sonda vətənpərvər şairə Zəminə Xınalı çıxış edərək Z.Məhərrəmlinin "Döyüşə qızlar gedir", "Qırx qız dastanı" kitablarının təkrar nəşr olunması, müharibə veteranı olan, ağrılı-acılı, qanlı-qadalı müharibəni görmüş xanımlarımızla xüsusi təyinatlı məktəblərdə görüşlərin təşkil edilməsilə bağlı arzularını bildirdi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

### Azərbaycan cüdoçuları beynəlxalq turnirin qalibi olub



1999-2001-ci il təvəllüdlü oğlanlar və qızlar arasında Həzi Aslanovun xatirəsinə həsr edilmiş XXVIII beynəlxalq cüdo turniri keçirilib.

10 ölkədən 357 idmançının iştirak etdiyi turnirdə bu qurumun 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbi (İOEUGİM) 38 cüdoçu ilə təmsil olunub.

Yarışda idman məktəbinin cüdoçuları dörd qızıl, bir gümüş və iki bürünc medal qazanaraq birinci yerə layiq görülüblər. Murad Abışov 46 kiloqram, Cəfər Əkbərli 90 kiloqram, Mehdi Zeynalov 55 kiloqram və Diana Şoranova 70 kiloqram çəkidə qızıl, Sabir İsmayılov 66 kiloqram çəkidə gümüş, Nigar Hacıramazanova 40 kiloqram və Paşa Əliyev 73 kiloqram çəki dərəcəsində bürünc medalla turniri başa vurublar.

### "Formula-1" pilotları iyunun 14-dən etibarən Bakıya gələcəklər



"Formula-1" Avropa Qran-prisində iştirak edəcək komandaların pilotlarının ilk qrupu iyunun 14-dən Bakıda olacaqlar.

Pilotlar öz komandalarının texniki heyətləri ilə birgə gələcəklər. Ümumilikdə paytaxta 11 komanda təşrif buyuracaq.

### Gənc gimnastımız İspaniyada bürünc medal qazanıb



İspaniyanın Qvadalaxara şəhərində bədii gimnastika üzrə dünya kuboku və gənclər arasında beynəlxalq turnir keçirilib.

Kubok yarışlarında Marina Durunda lentlə final mərhələsində çıxış edərək beşinci yerdə qərarlaşıb.

Kubokda Azərbaycanı qrup hərəkətləri yarışlarında təmsil edən Siyana Vasileva, Aleksandra Platonova, Diana Doman, Ayşən Bayramova və Elif Zeynep Celepdən ibarət komanda çıxış proqramının hər iki finalına (5 lent, 3 cüt gürz və 2 halqa) vəsiqə qazanaraq 5-ci yeri tutub. Çoxnövçülükdə isə qızlar 6-cı nəticəni göstəriblər.

Dünya kuboku ilə paralel keçirilən beynəlxalq turnirdə gənc gimnastlar İlahə Məmmədova, Veronika Qudis və Zöhrə Ağamirova iştirak ediblər.

Azərbaycan təmsilçisi Veronika Qudis iplə finalda çıxış edərək 3-cü yeri ispaniyalı gimnastla bölüşüb.

### Su polosu üzrə Bakı çempionatına yekun vurulub



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Su İdman Sarayında su polosu üzrə Bakı çempionatı keçirilib.

Çempionatda birincilik uğrunda 4 komanda mübarizə aparıb.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda "Su İdman Sarayı" komandası çempion adını qazanıb. MOİK ikinci, "Su İdman Sarayı-2" komandası isə üçüncü pillədə qərarlaşıb.

Mükafatçılara Baş İdarə tərəfindən diplom və xatirə hədiyyələri təqdim olunub.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 392
Nüsxə 4750